Azərbaycan Respublikasının Standartlaşdırma,
Metrologiya və Patent üzrə Dövlət Komitəsinin
21 fevral 2013-cü il tarixli, 004 nömrəli Qərarı
ilə təsdiq edilmişdir

13 nömrəli əlavə

# Cərimələrin internet vasitəsilə ödənilməsi elektron xidməti üzrə inzibati reqlament

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Cərimələrin internet vasitəsilə ödənilməsi

**1.2. Elektron xidmətin məzmunu:** Bu xidmət Azərbaycan Respublikasında qanunvericiliyin tələblərini pozmuş təsərrüfat subyektlərinə qarşı Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti (bundan sonra - Dövlət Nəzarəti Xidməti) tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə (bundan sonra - İXM) uyğun tətbiq edilmiş cərimələrin internet vasitəsi ilə ödənişini əhatə edir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

- Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 68-5, 228.0.1, 228.03-228.0.5, 228.0.8-228.12, 317.2, 451.3-cü, maddələri;
- Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 aprel tarixli 604 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti haqqında Əsasnamə"nin 3.1.16-cı yarımbəndi;
- "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 saylı Fərmanının 2-ci və 2-1-ci hissələri;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş 1 nömrəli Əlavə - "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları", həmin Qaydalara 1 nömrəli Əlavə, eləcə də "Elektron xidmət növlərinin Siyahısı"nın 29.13-cü bəndi.

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (bundan sonra – Komitə).

**1.5. Elektron xidmətin digər icraçıları:** Yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Bu sahədə göstərilən elektron xidmət tam avtomatlaşdırılmışdır.

**1.7. Elektron xidmətin icra müddəti:** Cərimələrin ödənişi ilə bağlı müddət əməliyyatın informasiya sistemi tərəfindən emalı vaxtına bərabərdir.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq barəsində inzibati tənbeh vermə haqqında qərar qəbul edilmiş şəxs tərəfindən inzibati cərimənin ödənilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** interaktiv

**2.2. Elektron xidmət üzrə ödəniş:** ödənişsiz

**2.3. Elektron xidmətin istifadəçiləri:** Barəsində inzibati tənbeh vermə haqqında qərar qəbul edilmiş fiziki və hüquqi şəxslər

**2.4. Elektron xidmətin təqdim olunma yeri:**
http://www.e-xidmet.azstand.gov.az

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**
http://www.e-xidmet.azstand.gov.az/

- e-mail: azs@azstand.gov.az
- tel: (012) 449 99 59

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması**

**2.6.1. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər dövlət orqanlarının informasiya ehtiyatında olduqda:** Elektron xidmətdən istifadə etmək üçün fiziki və ya hüquqi şəxs inzibati tənbeh vermə haqqında qərarın nömrəsini və tarixini daxil etməlidir.

**2.6.2. elektron xidmətin göstərilməsi üçün tələb olunan məlumatlar və sənədlər dövlət orqanlarının informasiya ehtiyatında olmadıqda:** Elektron xidmətin göstərilməsi üçün tələb olunan məlumatlar aşağıdakılardır:

- Barəsində inzibati tənbeh vermə haqqında qərar qəbul edilmiş fiziki və hüquqi şəxs barədə məlumat(fiziki şəxsin adı, soyadı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və hüquqi ünvanı;

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1.** Cərimələrin ödənişi üzrə elektron xidmət istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.

**3.2. Elektron xidmətlər üçün sorğu:**

Hüquqi və ya fiziki şəxs elektron xidmətin təqdim edildiyi internet ünvanında adını, inzibati tənbeh vermə haqqında qərarın nömrəsini və tarixini daxil etməklə inzibati cərimənin ödənilməsi imkanını əldə edir.

**3.2.1. Sorğunun formalaşdırılması:**

**3.2.1. sorğunun formalaşdırılması:** Sorğu forması elektron xidmətin təqdim edildiyi internet ünvanında bu reqlamentin 2.6-cı bəndində göstərilən məlumatları daxil etməklə formalaşdırılır.

**3.2.2. sorğunun qəbulu:** Sorğu www.azstand.gov.az internet səhifəsinə daxil olduğu gün qeydə alınır və bu barədə dərhal istifadəçinin elektron poçt ünvanına bildiriş göndərilir.

**3.3 Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.3.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:**

İstifadəçi bu Reqlamentin 2.4-cü bəndində göstərilmiş internet ünvanında informasiya sisteminin müvafiq pəncərəsində inzibati tənbeh vermə haqqında qərarın nömrəsini və tarixini düzgün daxil etmədikdə sistem tərəfindən sorğunun yerinə yetirilməsindən imtina edilir. Sorğunu yerinə yetirməkdən imtina istifadəçinin yenidən sorğu verməsinə mane olmur.

**3.3.2. Sorğunun qəbulu:**

İstifadəçi bu reqlamentin 2.6-cı bəndində nəzərdə tutulmuş məlumatları düzgün daxil etdikdə sorğu qəbul olunur.

**3.4. Sorğunun icrası:**

**3.4.1. ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:**

- istifadəçi bu Reqlamentin 2.4-cü bəndində göstərilmiş internet ünvanda rekvizitləri daxil edir;

- avtomatik rejimdə cərimə ödənilir və onun ödənişi barədə istifadəçiyə bildiriş göndərilir;

- Cərimənin ödənilməsi ilə bağlı sorğu Komitənin Elektron xidmətlər sistemi vasitəsilə qəbul edilir. Adıçəkilən sistem Komitənin İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsi tərəfindən idarə olunur və sorğunun qəbuluna və icrasına məsul bölmə olaraq cavabdehlik daşıyır. Komitənin İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsi tərəfindən istifadəçinin cərimәni ödəməsi barədə dərhal Komitənin Maliyyə şöbəsinə və Dövlət Nəzarəti Xidmətinə məlumat verilir.

**3.4.2. hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və (və ya) maksimal yerinə yetirilmə müddəti:**

- istifadəçi bu Reqlamentin 2.4-cü bəndində göstərilmiş internet ünvanda rekvizitləri daxil etməklə, inzibati cəriməni internet vasitəsilə ödəyir və bu barədə avtomatik rejimdə istifadəçiyə bildiriş göndərilir;

- Komitənin İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsi tərəfindən istifadəçinin cərimənin ödəməsi barədə dərhal Komitənin Maliyyə şöbəsinə və Dövlət Nəzarəti Xidmətinə məlumat verilir.

Əməliyyatın icra müddəti onun informasiya sistemində emalı müddətindən asılıdır.

**3.4.3. inzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** Yoxdur.

**3.4.4. hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:**

Cərimə onlayn rejimdə ödənilir.

İstifadəçi inzibati cərimə üzrə ödəniş həyata keçirildikdə bununla bağlı çıxarışı çap edir və ya onu özünün elektron poçt ünvanına göndərir.

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.5.1. Nəzarət forması:** Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə mütəmadi monitorinqi

**3.5.2. Nəzarət qaydası:** Monitorinq nəticəsində müraciətlərin qəbulu, cavablandırılmasının müddəti və prosesin tamlığı izlənilir, baş verən nöqsanlar barədə hesabatlar tərtib olunur. Həmin hesabatlar sistemin fəaliyyətinə məsul olan şəxslər tərəfindən daim izlənilir.

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.6.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:**

İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

**36.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:**

Şikayət kağız üzərində və elektron qaydada tərtib oluna bilər. Kağız üzərində şikayət Komitənin poçt ünvanına, elektron şikayət isə bu reqlamentin 2.5-ci bəndində göstərilən poçt ünvanına göndərilməlidir.

**3.6.3. Şikayətin baxılma müddəti:**

Şikayətə 15 (on beş) gün ərzində baxılır. Əlavə öyrənilməsi və yoxlanılması tələb edilən şikayətə 30 (otuz) gün müddətində baxılır.